

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 noyabr 2024-cü il №84 (2895) https://mod.gov.az Qiyməti 30 qəpik

## Sən Zəfərin əsgərisən, Azərbaycan əsgəri!




Min illərdi Azərbaycan "mayəsi də, qayəsi də nur" olan məmləkət kimi tanınır, sevilir. Bu ilahi nurun haləsinin Vətən olduğu da etiraf edilir. Çoxlarına (həm dövlət olaraq, həm də fərd olaraq) Vətənin nə olduğunu da bu nur nişan verir. Bu məmləkətin torpağında cücərən gülüçiçəyi də, çaxan şimşəyi də, axar bulağı da, qaranlıqları əridən çırağı da, çiçəklərin ləçəyinə düzülən şehi də, boy göstərən dağı da, yarpaqları titrədən mehi də, yağışdan sonra gözümüzün də, könlümüzün də ecazkarlıq tacına dönən qövsi-qüzehi də, ... zaman-zaman Vətən bilmişik deyə ruhumuzun nənnisi olub, Ana, Vətən, Ana Vətən kəlmələri - illərin nənnisi, şərqisi. Sən də belə düşünürsən və nə gözəl düşünürsən, Azərbaycan əsgəri! Kəlmələrin and kimi səslənir...

Sən həm də deyirsən ki, Vətən təkcə sərhədlərlə əhatələnmiş ərazi deyil, ruhun əzizləndiyi, ruhun əzizlədiyi, sərhədlərini milli-xəlqi ruh müəyyənləşdirən ərazidi. Bu ərazi çox genişdi - tarixin hansı dönəmindəsə bugünkü sərhədlərin o üzündə qalan ərazilər də Vətəndi...

Yaşaya-yaşaya yaşadılan, yaşadıla-yaşadıla müqəddəsləşən torpaqdı Vətən - sən bu düşüncələrin də əsgərisən, Azərbaycan əsgəri, sənin ömür fəlsəfən bu düşüncələrdən keçir. Babandan, müəllimlərindən eşidib-öyrənibsən ki, zamanında əli silah tutanlar, barmağı tətik sıxanlar da belə düşünüb, atandan, müəllimlərindən Birinci Qarabağ müharibəsində də, İkinci Qarabağ müharibəsində də döyüş əzmi belə olub. İndi yeniyetmələr də, gənclər də belə düşünürlər...

Müharibədə döyüşlərdə bu düşüncələr döyüş əzmi idi, qələbə ruhu idi, bu düşüncələr şəhidlərimizin son nəfəsinin kəfəni oldu. "Döyüşlərdə şəhidlərimiz döyüş əzmimizin, qələbə ruhumuzun bayrağı idi..." - Azərbaycan əsgərinin şəhidlərimizə ehtiramı da Vətənə sevgidi. Azərbaycan əsgəri, nə gözəl düşünürsən!..

Dədə Qorqud öyüdüdü: Torpağı qorumadınsa, əkib-becərməyə dəyməz, əkib-becərmədinsə qorumağa dəyməz. Neçə yüz illərdi yeniyetmələr bu ruhla formalaşır, gəncləşir, gənclər bu ruhla əsgərləşirlər. Torpaqlarımıza sərhədlər düşəndən - dövlətimiz, dövlətçiliyimiz yaranandan belədi. Sərhədlərimizdə yad atları kişnəyəndə qeyrət kəsərli qılınca dönüb, analar oğullarını, qızlar qardaşlarını, gəlinlər əzizlərini döyüşlərə uğurlayıb, ərənlər hər döyüşü son döyüş biliblər. İndi işğaldan azad edilmiş ərazilərimizdə də torpaqlar əkilir, səpilir, becərilir...

İllər qərinələşdi, yüz illər ötdü. Azərbaycan dövlətçiliyi dünyaya yeni nizam gətirdi, dünya azərbaycançılığın fəlsəfəsini dərk elədi: Bildi ki, mayəsi də, qayəsi də nur olan bu məmləkətin hər daşı alov dilli oxa dönür!..

Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Bu müharibə azərbaycançılığın erməniliklə müharibəsi idi. Bu müharibə, qazanılan Böyük Qələbə dünyanı "Zülmün topu var, gülləsi var, qəlpəsi varsa, haqqın da yenilməz qolu, dönməz üzü vardır!" kəlamına - Tofiq Fikrətin şeir fəlsəfəsinə biatə gətirdi.

Azərbaycan əsgəri, sənin atan, atanın yaşıdları Birinci Qarabağ müharibəsində döyüşlərə bu ruhla gedirdilər. İkinci Qarabağ müharibəsində səndən üç-dörd yaş böyük olanlar bu ruhla döyüşürdü, bu ruhla döyüşlərə can atırdı. Sən də, yaşıdların da ataların, Vətən müharibəsi iştirakçılarının döyüş xatirələriylə formalaşdınız, çağırışçı yaşına çatdınız.

Siz də bilirdiniz ki, Ermənistan Bağanıs-Ayrımda, Meşəlidə, Başlıbeldə, Qaradağlıda, Ağdabanda, Xocalıda faciələr törədib, yüzlərlə azərbaycanlı qətlə yetirilib, əsir düşüb. Ermənilik sizin də qəlbinizi qana döndərirdi, siz də səngərləri sərhədlərə köçürmək qətiyyəti ilə xidmət edənlərin sırasında olmaq üçün gecələrin səhərinin xəyalını qururdunuz. Çağırışçılar hərbi xidmətə Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə iştirak etmək ümidi ilə gedirdilər. Onlar da, əhali də, əhalinin sırasında siz də bilirdiniz ki, əsgər ürəyindən başlanır Vətən. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Sən, Azərbaycan əsgəri, onda yeniyetməydin, orta məktəbdə oxuyurdun. Sentyabrın 28-də sən də, yaşıdların da yaşınızın azlığına təəssüfləndiniz...

Xarici havadarlarından həm siyasi, həm də hərbi dəstək alan işğalçı Ermənistan Birinci Qarabağ müharibəsində müharibə qanunlarına məhəl qoymurdu, kəndlərdə qırğınlar törədirdi, qırğınları dünya ictimaiyyətindən, tarixdən gizlətmək üçün kütləvi məzarlıqlar yaradırdı. Belə məzarlıqlar Vətən müharibəsindən sonra neçə yerdə aşkar edildi. Bunları eşidəndə, o məzarlıqları televiziyada görəndə sənin də yumruqların düyünlənmişdi, qaşların çatılmışdı. Nələr düşünmüşdün onda, bu günün əsgəri? Heysiyyətin sənə nələr demişdi? İndi nələr düşünürsən?..

İkinci Qarabağ müharibəsi Azərbaycan üçün Vətən müharibəsi - xalqın müharibəsi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində demişdi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz Zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Azərbaycan Ordusu bu qətiyyətlə döyüşürdü, Azərbaycan əsgəri!

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Şuşa döyüşləri, qazanılan qələbə indi də heyrətlə xatırlanmaqdadır. Bu heyrət Azərbaycan Ordusunun şücaətinə, qüdrətinə, döyüşənlərin mərdliyinə, ərənliyinə heyrətdi; Azərbaycan hərbçiləri Cıdır düzünə, Şuşaya Şuşanın dağlarını nərdivana döndərib çatmışdılar. Şuşanın dağlarında son nəfəsində qanı ilə dağa "Qarabağ Azərbaycandır!" yazmış döyüşçünün Vətənə sevgisi yaşadılır. Yağan yağışlar, qarboran, yellər o yazını bəlkə də nə vaxtsa siləcək, şəhid döyüşçünün son nəfəsinə bürüncək olmuş "Qarabağ Azərbaycandır!" kəlməsi ürəklərdən, düşüncələrdən, ruhdan üzülməyəcək. Sən belə oğulların ruh qardaşısan, belə əsgərlərin davamçısısan, Azərbaycan əsgəri!..

Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Sən Azərbaycanın ərazi bütövlüyünün əsgərisən, bu bütövlüyü qoruyursan. Sən Azərbaycan əsgərisən! Sən Zəfərin əsgərisən, Azərbaycan əsgəri! Qətiyyətin, məhəbbətin, dövlətə, dövlətçiliyə sədaqətin əsgərisən!..

**"Azərbaycan Ordusu"**



3-cü səhifədə

“Hərbçi olmaq qürurludur, tankçı olmaq şərəfdir”



5-ci səhifədə

Peşəkar kadrların hazırlandığı Naxçıvan Hərbi Kollecindən reportaj



6-cı səhifədə

“Vətən candan şirindir”



6-cı səhifədə

“O vaxtdan hərbçi olmağı qərara almışdım”

# Azərbaycan müdafiə naziri Slovakiyada rəsmi səfərdədir





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın dəvəti ilə bu ölkədə rəsmi səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov "Slavin - İkinci Dünya Müharibəsi abidəsi"ni ziyarət edib. Abidə önünə əklil qoyaraq həlak olanların xatirələrinə ehtiram nümayiş etdirib.

Bratislava şəhərində Azərbaycan müdafiə naziri slovakiyalı həmkarı ilə görüşüb.

Görüşdən əvvəl təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Görüşdə Azərbaycan ilə Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin hərbi, hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.







# Azərbaycan müdafiə naziri Slovakiyada hərbi institutu ziyarət edib









*Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın dəvəti ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu ölkəyə rəsmi səfəri davam edir.*

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Zahorie Hərbi-Texniki və Sınaq İnstitutunu (VTSU) ziyarət edib.

Azərbaycan Respublikasının müdafiə nazirinə institutun tarixi və əsas fəaliyyət istiqamətləri ilə bağlı ətraflı məlumat verilib.

İnstitutda yaradılan şərait və təhsil sistemi ilə tanışlıqdan sonra Azərbaycan nümayəndə heyəti təlim sahəsinə gələrək burada müxtəlif döyüş texnikaları ilə tanış olub və atışlarda iştirak edib.

## Hərbi institutun kursantları Cənubi Koreyada “12-ci Beynəlxalq Kursantlar Həftəsi”ndə iştirak ediblər





Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun bir qrup şəxsi heyəti Cənubi Koreyada "12-ci Beynəlxalq Kursantlar Həftəsi"ndə iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Cənubi Koreya Respublikasının Hərbi Hava Qüvvələrinin Akademiyasında keçirilən tədbirdə Azərbaycan, ABŞ, Almaniya, Böyük Britaniya, Filippin, Fransa, İraq, İsveç, İtaliya, Meksika, Tayland, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Yaponiya və Yunanıstandan olan kursantlar iştirak ediblər.

Tədbir çərçivəsində kursantlarımız Cənubi Koreya Respublikasının hərbi təhsil sistemi ilə yaxından tanış olub, eləcə də digər iştirakçı ölkələrin şəxsi heyəti ilə qarşılıqlı təcrübə mübadiləsi aparıblar.

# Zəfər günü ərəfəsində bir sıra QHT rəhbərləri ilə görüş keçirilib



Noyabrın 5-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə şəhid ailələri, müharibə veteranları ilə işləyən, hərbiyönümlü istiqamət üzrə fəaliyyət göstərən bir sıra QHT-lərin rəhbərləri, ekspertlər və blogerlərlə görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyanın, Müdafiə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının məsul şəxsləri də iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov bildirib ki, vətəndaş cəmiyyəti təmsilçiləri ilə bu görüş Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasına uyğun olaraq keçirilir. General-mayor M.Məmmədov bu strategiyadan irəli gələn vəzifələrin icrası ilə bağlı görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.





Baş idarə rəisi deyib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbə tariximizə qızıl hərflərlə həkk olub.

Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev bu formatda görüşün, birbaşa müzakirələrin təşkilinin mühüm əhəmiyyət daşıdığını bildirib, müvafiq gözləntiləri diqqətə çatdırıb.

Görüşdə aidiyyəti dövlət qurumlarının nümayəndələri QHT-lərin, ekspertlərin və blogerlərin suallarını cavablandırıb, təkliflər dinlənilib, müvafiq qeydlər götürülüb.

Müzakirələrdə xüsusi vurğulanıb ki, bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət-xalq-ordu birliyi möhkəmdir və sarsılmazdır, tarixi Zəfər Azərbaycanı yeni inkişaf müstəvisinə qaldırıb.

Analoji görüşlər davam etdiriləcək.

## ANAMA: Ötən həftə 7421 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarına dair həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, oktyabrın 28-dən noyabrın 3-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 164, tank əleyhinə 73 mina və 7421 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 2270.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## "Hərbçi olmaq qürurludur, tankçı olmaq şərəfdir"

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar sayəsində ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da yüksək inkişaf nümunələrinə hər addımda rast gəlirik. Bu gün dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində region-da öz sözünü demiş, müasir silah və texnika ilə təmin olunmuş, dünyanın ən güclü orduları sırasında 29-cu yerdə qərarlaşmış qüdrətli Azərbaycan Ordusu formalaşıb. Həmin ordu ki, Vətən müharibəsində və Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatında qarşıya qoyulmuş tapşırıqları uğurla icra edərək ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyini tam bərpa etdi.

Rəşadətli ordumuzun şücaəti nəticəsində bu gün işğaldan azad edilmiş əzəli torpaqlarımızda artıq infrastruktur layihələri, tikinti-quruculuq işləri həyata keçirilir. Hərbçilərimizin qəhrəmanlığı, şəhidlərimizin canı-qanı bahasına azad olunmuş yurd yerlərimizə həyat yenidən qayıdır. Lakin müharibənin bitməsinə baxmayaraq ərazi bütövlüyümüzün və suverenliyimizin qarantı olan Azərbaycan Ordusu gücünü, peşəkarlıq səviyyəsini və döyüş hazırlığını durmadan artırır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında dediyi kimi: "Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik".



Ordumuzun bütün bölmələri kimi, tank bölmələrinin şəxsi heyəti də öz bilik və bacarığını, texnikadan istifadəetmə vərdişini durmadan təkmilləşdirir.

"N" hərbi hissəsində baş leytenant Nahid Hüseynov ilə həmsöhbət olduq. Əslən Cəlilabad rayonundan olan zabit 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirərək "N" hərbi hissəsində xidmətə başlayıb. O, həm 44 günlük Vətən müharibəsində, həm də ötən ilin 19-20 sentyabrında həyata keçirilən antiterror əməliyyatında iştirak edib.

"Necə oldu ki, hərbçi olmaq qərarına gəldin?" sualına zabit cavabında dedi ki, ermənilərin xalqımızın başına gətirdiyi müsibətlər, torpaqlarımızın işğalda olması, xalqımızın müharibə ilə bağlı ağrılı-acılı xatirələri onun peşə seçiminə təsir edib. "Seçdiyim peşədən hər zaman qürur duymuşam. Çünki biz müqəddəs vəzifə yerinə yetirən Vətənin qoruyucularıyıq. Hərbçi olmaq qürurludur, tankçı olmaq şərəfdir".

Hərbi qulluqçumuz komandiri olduğu bölmənin müharibənin başa çatmasına baxmayaraq bu gün də öz bilik və bacarığını artırdığını, təhkim olunan texnikanın sirlərinə dərindən yiyələndiyini qeyd etdi. "Bilirik ki, döyüşdə əsas texnikalardan biri də tankdır. Tank bölmələri düşmənin müdafiə xəttini yararaq yüksək templə hücum etmək, güclü müdafiə mövqeyi qurma və qətiyyətli əks-hücum əməliyyatı həyata keçirmə imkanlarına malik olmağa böyük dəstəkdir. İştirakçısı olduğum Vətən müharibəsində və antiterror əməliyyatında bunun canlı şahidi oldum. Mütəmadi olaraq keçirilən dərs, məşğələ və təlimlərdə qazandığımız təcrübə sayəsində komandanlıq tərəfindən qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəldik, torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzü tam bərpa etdik. Bu gün tarixi ədalətin bərpa edilməsində bir övlad, bir vətəndaş, bir hərbçi kimi iştirak etdiyimə görə fəxr edirəm", - deyə zabit bildirdi.

Digər həmsöhbətlərim Elvin Hüseynov və Elmir Qandayev bildirdilər ki, döyüşə uğur qazanmaq üçün hər bir tankçı hərbi texnikanın sirlərini mükəmməl bilməli, onu həmişə döyüşə hazır vəziyyətdə saxlamalı, texniki vəziyyətini daima yoxlamalı, hər an çıxışa hazır olub-olmadığını diqqətlə nəzərdən keçirməlidir. Onlar qeyd etdilər ki, döyüş hazırlığı dərslərində, taktiki məşğələlərdə, təlimlərdə iştirak edərək təcrübələrini təkmilləşdirir, peşəkarlıqlarını artırırlar. "Məşğələlərdə silahlarla atəşaparma qaydalarını, hədəflərin müşahidəsi və məsafələrin təyin edilməsini, maskalanma, mühəndis manevrlərinin dəf edilməsi, eləcə də digər fəaliyyətlər üzrə çalışmaları yerinə yetirərək praktiki vərdişlərimizi gündəngünə təkmilləşdiririk".

Tankçılarımızla söhbətdən xoş təəssüratlarla ayrıldıq. Əminik ki, "dəmir atlı" cəngavərlərimiz bundan sonra da qarşıya qoyulan bütün tapşırıqları iştirakçısı olduqları döyüş əməliyyatlarında olduğu kimi uğurla yerinə yetirmək əzmindədirlər.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi prokuror Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə görüşüb







Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Bakı şəhərində keçiriləcək COP29 beynəlxalq tədbir, eləcə də hüquqi biliklərlə bağlı maarifləndirmə ilə əlaqədar Zəfər Günü ərəfəsində Hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsində hərbi qulluqçularla görüş keçirib.

Hərbi Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin iştirakı ilə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçularının birgə keçirdikləri tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni səsləndirilib.

Hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev, general-mayor Müşfiq Məmmədov, general-mayor Akif Pirverdiyev çıxışlarında istiqlal yolumuzu və firavan istiqbalımızı nurlandıran böyük tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni siyasi müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 21 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurların əldə edilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etməsindən söz açıblar.



Tədbirdə ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından da bəhs edilib.

Tədbirdə dövlət rəhbərinin uğurlu xarici siyasəti sayəsində dövlətimizin beynəlxalq aləmdə durmadan artan nüfuzundan, ölkəmizdə keçiriləcək COP29-un mahiyyətindən, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, cinayətlərindən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin məişət və xidmət şəraiti, həmçinin qayğı və problemləri ilə maraqlanılıb.

Tədbirdən sonra ağaclar əkilib.



# “AZIREX-2024” birgə taktiki təlimi keçirilib

*Xəzər dənizinin İran İslam Respublikasına mənsub hissəsində Azərbaycan və İran İslam Respublikası Ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup şəxsi heyəti və gəmisinin iştirakı ilə "AZIREX-2024" birgə taktiki təlimi keçirilib.*




Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə "Dənizdə axtarış-xilasetmə" təliminin məqsədi və icra olunacaq tapşırıqlarla bağlı brifinq təqdim edilib, qarşılıqlı müzakirələr aparılıb.

Azərbaycan-İran hərbi əməkdaşlığını möhkəmləndirmək məqsədilə keçirilən təlimdə gəmi qəzaları zamanı xilasetmə və tibbi yardım tədbirlərinin həyata keçirilməsi, axtarış-xilasetmə əməliyyatları və gəmi təhlükəsizliyinin təmin olunması üzrə fəaliyyətlər icra edilib.

Təlimin müxtəlif mərhələləri üzrə qarşıya qoyulan tapşırıqlar hərbi dənizçilər tərəfindən yüksək peşəkarlıq nümayiş etdirilməklə yerinə yetirilib.






## “Hərbi meydanda məğlub olan Ermənistan müxtəlif yollarla Azərbaycandan qisas almağa çalışır”

Hərbi meydanda məğlub olan Ermənistan müxtəlif yollarla Azərbaycandan qisas almağa çalışır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc "Parlamentlər və qlobal sanksiya tendensiyaları: qanunvericilik orqanında siyasi sanksiyalarla bağlı lobbiçilik beynəlxalq hüquqa maneədir" mövzusunda keçirilən dəyirmi masada söyləyib.

Onun sözlərinə görə, dünyada heç vaxt indiki qədər parçalanma və qütbləşmə olmayıb. Ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarının əsas məqsədi Qələbəmizi əlimizdən almaq, onu gözdən salmaq, Azərbaycanın regiondakı nüfuzunu zədələməkdir.

Deputat əlavə edib ki, Qarabağ Zəfərindən sonra ABŞ Konqresində Azərbaycana qarşı kampaniyalar aparanların maliyyə yardımı artırılır.

# Peşəkar kadrların hazırlandığı Naxçıvan Hərbi Kollecindən reportaj



*Vətən müharibəsindən sonra ölkəmizin müdafiə potensialının gücləndirilməsi və hərbi qüdrətinin artırılmasına xidmət edən ordu quruculuğu siyasəti yeni mərhələyə qədəm qoyub. Bu xüsusda diqqətçəkən məqamlardan biri də müharibənin, döyüş təcrübəsinin, eyni zamanda, müasir hərb sistemi əsas götürülərək geniş islahatların reallaşdırılmasıdır. Ötən il dekabrın 14-də Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən ölkənin üç şəhərində - Bakı, Gəncə və Naxçıvanda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin yaradılması da ordu quruculuğu, peşəkar hərbçi kadrların hazırlanması istiqamətində yeni perspektivlər vəd edən sistemli tədbirlərin tərkib hissəsidir.*

AZƏRTAC-ın Naxçıvan bürosunun əməkdaşı 2024-2025-ci tədris ilindən qapılarını müəllim və kursantlara açan Milli Müdafiə Universitetinin tabeliyindəki Naxçıvan Hərbi Kollecində yaradılan təhsil, təlim şəraiti ilə tanış olub, xüsusi təyinatlı orta ixtisas təhsili müəssisəsinin Azərbaycan hərb təhsilində rolu, ordumuzun komplektləşdirilməsi işində, kadr təminatında əhəmiyyəti və potensial imkanları barədə suallara aydınlıq gətirib.

Hərbi kollecin İdeoloji və mənəvi-psixoloji təminat bölməsinin rəisi mayor Elvin Qurbani xüsusi təyinatlı orta ixtisas məktəbinin yaradılmasının gələcəkdə ordu quruculuğuna mühüm töhfələr verəcəyini deyib: "Azərbaycan Ordusunun müasir tələblərə uyğun tələbatını qarşılamaq üçün maddi-texniki bazanın, silah və texnikaların müasirləşdirilməsi ilə yanaşı, peşəkar gizir kadrlarının hazırlanması üçün hərbi kolleclərin yaradılması mühüm əhəmiyyətə malikdir. Müasir döyüşlər peşəkarların döyüşüdür. Peşəkarların əməliyyatlara əhəmiyyətli təsiri danılmazdır. Həmin amil özünü 44 günlük Vətən müharibəsində də göstərdi. Bu baxımdan Azərbaycan Ordusu üçün də yeni nəsil silah-sursatlardan, müxtəlif təyinatlı texniki vasitələrdən bacarıqla istifadə etmək məqsədilə peşəkar gizirlərin yetişdirilməsinin vacibliyini xüsusi qeyd etmək lazımdır. Bu məsələlər Naxçıvan Hərbi Kollecinin ölkəmizin, muxtar respublikanın müdafiəsində dayanan hərbi hissələr üçün nə dərəcədə lazımlı olduğunu göstərir. Həmçinin Naxçıvanın blokadada olması faktını da nəzərə alsaq, bu kollecin yaradılması, fəaliyyətə başlaması Vətənimizin müdafiəsində durmaq arzusunda olan gənclərlə hərbi hissələrdə peşəkar kadr balansının saxlanılması üçün də böyük əhəmiyyətə malikdir".





Müsahimizin sözlərinə görə, Naxçıvan Hərbi Kolleci Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən, müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı orta ixtisas təhsili müəssisəsidir. Kollecin fəaliyyətinin əsas məqsədi Azərbaycan Ordusu üçün orta ixtisas təhsilli subbakalavr peşə-ixtisas dərəcəli mütəxəssislər hazırlamaq və əlavə təhsil üzrə kadr hazırlığını həyata keçirməkdir. Hərbi kollecin təhsil kampusu zəngin maddi-texniki bazaya malikdir. Arxitektura baxımından mükəmməl olan tədris korpuslarında yüksək zövqlə dizayn edilmiş mühazirə, məşğələ otaqları, kabinə və mərkəzlər mövcuddur. Dərslər hərbi nizamnaməyə uyğun olaraq, həm nəzəri, həm də praktiki şəkildə tədris olunur. Təlim prosesində ən son modifikasiyalı texnologiyalardan istifadə edilir. Burada elektron zalları, zəngin kitab fondu olan üçmərtəbəli kitabxana binası, kursantların sağlamlığı və fiziki hazırlığının daim diqqət mərkəzində saxlanılması məqsədilə idman zalı, futbol meydançası, müxtəlif idman qurğuları, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün klub-konfrans zalı, hər cür şəraitə malik müasir yataqxana, həmçinin üçmərtəbəli sosial xidmət mərkəzi fəaliyyət göstərir.



Kollecdə kursantların fiziki hazırlığı qarşıya qoyulan prioritet məqsədlərdən biridir. Belə ki, Vətən müharibəsi döyüşdə fiziki hazırlığın nə qədər əhəmiyyətli olduğunu bir daha sübut etdi. Ona görə də Naxçıvan Hərbi Kollecində kursantların fiziki hazırlığı, xüsusilə əlbəyaxa döyüş və digər idman növləri üzrə dərnəklər fəaliyyət göstərir. Bu dərnəklər xüsusi bacarıqlı, peşəkar zabit və müəllimlər tərəfindən təşkil olunur. Həmçinin kursantların azərbaycançılıq ideologiyası ruhunda yetişdirilməsi üçün nəzəri və praktik dərslər, məşğələlər ən yeni və müasir üsullardan istifadə olunaraq keçirilir.



Naxçıvan Hərbi Kollecinə qəbul qaydaları, kursantlar üçün yaradılan geniş təminat imkanları barədə danışan Elvin Qurbani qeyd edib ki, kollecə qəbul "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir. Müəssisədə orta ixtisas təhsili pilləsinə tam orta təhsili olan şəxslər, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilir. Namizədlər Müdafiə Nazirliyi tərəfindən sağlamlıq vəziyyətinin müayinəsinin nəticələrinə əsasən seçilir. Kursant adını qazananlar Azərbaycan dilində, iki il müddətində əyani formada təhsil və bu müddətdə ödənişsiz yataqxana, gündə 3 dəfə yeməklə təmin olunurlar. Həmçinin onlar üçün müəyyən məbləğdə birdəfəlik və təhsil müddətində aylıq ödəmələr təsis edilib.




Regionda cərəyan edən hadisələr, xarici təhdidlər ölkəmizin hərbi qüdrətinin artırılmasını, bütün tapşırıqları dəqiqliklə yerinə yetirə bilən müasir orduya, çevik xüsusi təyinatlı bölmələrə malik olmasını şərtləndirir. Bu baxımdan ən yeni texnoloji biliklərə, innovativ təlim bacarıqlarına yiyələnən kadrlara da ciddi ehtiyac var. Əminik ki, bu il fəaliyyətə başlayan Naxçıvan Hərbi Kolleci gələcəkdə ordumuzun kadr təminatında, Vətənimizin müdafiəsində mühüm rol oynayacaq, xüsusi təyinatlı təhsil müəssisəsinin məzunları öz peşələrinin qəhrəmanlarına çevriləcəklər.

# Şəhidlərimizin xatirəsi hər zaman uca tutulur







Torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən Müharibəsi Qəhrəmanı Zaur Nudirəliyev və Cəmil Nəcəfovun xatirələrinə həsr olunan anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, məktəblilər və digər qonaqların iştirak etdiyi mərasimlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, çıxış edənlər Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı parlaq Qələbədən, Vətən müharibəsində igid oğullarımızın göstərdiyi şücaət və qəhrəmanlıq nümunələrindən danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin həmişə uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimlərində şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

*Medallı igidlərimiz*

# “Vətən candan şirindir”

Vətən sevgisi insanın ruhuna hopan, onu yaşadan müqəddəslikdir. Vətənpərvərlik yalnız doğulduğun torpağı sevmək deyil, lazım olduqda onun üçün hər cür fədakarlıq etməkdir. Mayor Elvin Həşimov da ömrünü bu şərəfli missiyaya, Vətən torpaqlarını qorumağa həsr edib. Gənc yaşlarından hərb sənətini həyat yolu seçən zabit iradəsi və əzmi ilə zabit peşəsini həm də bir şərəf və məsuliyyət kimi qəbul edib.

1986-cı il oktyabrın 17-də Göyçayda dünyaya göz açan Elvin Həşimovun seçdiyi yol çətin, lakin qürurludur. Bu, həm də məsuliyyətli yoldur. Onun döyüşlərdə göstərdiyi igidliklər həm xarakterinin, həm də təhsil illərində qazandığı bilik və bacarıqlarının nəticəsiydi. 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2005-2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) aldığı təhsil onu püxtələşdirmişdi. 2016-cı ilin Aprel döyüşlərində də iştirak etdi, Vətən müharibəsində də. O, Cəbrayıl, Qubadlı, Zəngilan və Kəlbəcərin azad edilməsi uğrunda gedən döyüşlərin iştirakçısı oldu. Mayor Elvin Həşimov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



Mayor E.Həşimov hərbi xidməti haqqında dedi: "Mənim üçün hərbi xidmət sadəcə bir peşə deyil, həyatımın ayrılmaz hissəsidir. Vətənə xidmət etmək uşaqlıqdan arzuladığım və sonradan şərəflə icra etdiyim peşə oldu. Biz hərbçilər üçün Vətən sevgisi həm də əməldə sübut edilməli olan bir amaldır. Bu yolda yaşanan hər bir çətinlik mənim üçün qürurdur".

Mayor Elvin Həşimov Vətən müharibəsindən də danışdı: "O döyüşlər mənim və silahdaşlarımın yaddaşından silinməyəcək. 44 günlük Vətən müharibəsi işğalda qalmış torpaqlarımızın azadlığının nişanəsi idi. Hər döyüşdə xalqımızın və tariximizin bizə verdiyi məsuliyyəti hiss edirdik. Vətən yolunda yaşamaq da, şəhid olmaq da şərəfdir. Bu torpaqların uğrunda döyüşmək hər birimizin ən müqəddəs borcudur. Fəxr edirəm ki, Vətənə xidmət edirəm. Torpaqlarımızın azad olunması və suverenliyimizin tam bərpa olunması bizim üçün ən böyük mükafatdır".

Vətən müharibəsində zəfərlər qazanan mayor Elvin Həşimov kimi hərbi qulluqçuların sayəsində ölkəmizin hərbi qüdrəti güclənir, Vətənimizdə sülh və əmin-amanlıq təmin edilir. Əminliklə deyə bilirik ki, Azərbaycan bayrağı hər zaman bütün ərazilərimizdə daim əzəmətlə dalğalanacaqdır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# “O vaxtdan hərbçi olmağı qərara almışdım”

*Vətən vətənpərvər oğullara görə Vətəndir. Vətən deyəndə ilk yadımıza düşən onun ərazi bütövlüyü olur. Vətənimizin ərazi bütövlüyünə qarşı erməni işğalı 30 ilə qədər davam etsə də, Ali Baş Komandanın sərkərdəliyi ilə ordumuz torpaqlarımızı işğaldan azad etdi.*



Yadellilərin doğma torpaqlarımıza zaman-zaman hücumları olub. Ötən əsrin əvvəllərindən isə Ermənistan havadarlarının siyasi və hərbi dəstəyi ilə Azərbaycanın ərazilərinə qarşı işğalçılıq siyasəti yürütdü. Mənfur qonşularımız Qarabağımıza göz dikdilər. Müharibənin ilk illərində məlum səbəblərdən məğlubiyyətimiz qaçılmaz oldu. Lakin xalqın gələcəyə olan inamı itmədi. Düşmənin işğal etdiyi əraziləri gec-tez azad etmək üçün mübarizədən bir addım belə geri durmadı. Xalqla dövlətin sarsılmaz birliyi bunu özlüyündə bir daha ehtiva etdi. 27 sentyabr 2020-ci ildə başlanan əks-hücum əməliyyatı 30 ilə yaxın davam etmiş erməni işğalının sonunun başlanğıcı idi. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əməliyyatlarına rəhbərlik etməsi xalqda qələbəyə böyük ümid yaratdı. Qısa müddətdə ordumuzun bölmələri düşmənin möhkəmləndirilmiş mühəndis-istehkam xəttini yarıb əks-hücuma davam etdirdi. Bu döyüşlərə minlərlə döyüşçümüz cəlb olunmuşdu. Onların arasında ayrı-ayrı cəbhələrdə döyüşən ata və oğullar da var idi. İlham və oğlu Muraz kimi.

Baş çavuş İlham Cabbarov ucaboy, qaraşın, səmimi birisidir. Zabit Ramin Muradov dedi ki, İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcər uğrunda gedən döyüşlərdə fəal iştirak edib. “Oğlu Muraz həmin vaxt əsgər olub. Muraz isə xidmət etdiyi hərbi hissənin tərkibində Cəbrayıl və Füzuli istiqamətində döyüşüb. Onun cəsur döyüşçü olduğunu silahdaşları da söyləyirlər. Lakin Cəbrayıl şəhərinin ətrafında gedən döyüşlərdə Muraz düşmən gülləsindən yayına bilməyib, şəhid olub. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeni ilə təltif edilib”.

Zabit baş çavuş İlham Cabbarov haqqında qeyd etdi ki, o, hazırda hamam-camaşırxana rəisi vəzifəsində xidmətini davam etdirir. Onun xidmətə necə məsuliyyətlə yanaşdığını şəxsi intizamında da görmək olur. Şəxsi heyətin vaxtlı-vaxtında yuyunması, yataq ağlarının və geyimlərinin yuyulub ütülənməsi və bu sahədə hər hansı bir nöqsanın olmaması baş çavuşun xidmətə düzgün yanaşmasından irəli gəlir.

İlham Cabbarov Daşkəsən rayonunun Zağalı kəndində doğulub boya-başa çatıb. O, müddətli həqiqi hərbi xidmətini cəbhə bölgəsində, düşmənlə təmas xəttində keçirib. Onun doğulduğu rayon da döyüş bölgəsində yerləşirdi. Birinci Qarabağ müharibəsinin odu-alovu bu yerlərdən də yan keçməyib. İlham həmin illəri belə xatırlayır: - Orta məktəbdə oxuyurdum. Qonşu Kəlbəcər rayonunu ermənilər işğal edəndən sonra bizim də kəndlərimizi atəşə tutdular. Əhali həyəcan, təşviş içində idi. Buna baxmayaraq, yenə onlar evlərini tərk etmədilər. Ermənilər kəndlərimizi tez-tez artilleriya atəşinə məruz qoyurdular. O zaman hərbi xidmətə yaşım çatmadığı üçün könüllü döyüşə də göndərmirdilər. O vaxtdan hərbçi olacağıma qərar vermişdim. Heç vaxt naümid olmamışam, torpaqlarımızın azad ediləcəyi günü həmişə gözləyirdim. Müharibə başlayanda mən Kəlbəcər istiqamətində, oğlum Muraz isə cəbhənin digər istiqamətində döyüşürdü. Komandirləri və döyüşçü yoldaşları onun necə bacarıqlı, vətənpərvər döyüşçü olduğunu deyirdilər. Şəhidlərin sayəsində bu gün Vətənimizin ərazi bütövlüyü bərpa olunub.

Şəhid atası baş çavuş İlham Cabbarov dedi ki, hamam-camaşırxanada əsgərlər üçün dərzi, ütü, bərbər xidmətləri də göstərilir. “Burada ən müasir avadanlıqlar quraşdırılıb. Bacarıqlı, öz işinə ürəkdən bağlı olan operatorlarımız var. Onlar camaşırxanadakı ən yeni avadanlıqlardan düzgün istifadə etməklə hərbi hissədə şəxsi heyətin geyim və yataq ləvazimatlarının vaxtlı-vaxtında yuyulmasını təmin edirlər”.

Baş çavuş İlham Cabbarovun rəhbərlik etdiyi hamam-camaşırxanada çalışan kollektivin işgüzarlığı və bacarıqları ilə komandanlığın rəğbətini qazandığı hiss olunurdu.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu.**

**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

**Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı qələbənin rəhnidir.

### Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu

Əsgərin döyüşə psixoloji hazırlığı, hərbi kollektivlərin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti hər bir ordunun döyüş gücünün vacib tərkib hissələrindən biri sayılır. İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin qüdrətini və ordusunun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qazanılmış Zəfərlə əsasını qoyan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu barədə belə demişdir: "44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir".

"Mənəvi-psixoloji vəziyyət" məfhumu qoşunların fəaliyyətinə Azərbaycan Ordusunda yeni quruculuq işlərinin başlanması ilə daxil edilmişdir. Bu onunla şərtlənmişdir ki, hərbi-siyasi vəziyyətin yeni həqiqətləri, qarşıda duran hərbi vəzifələrin xüsusiyyətləri insan amilinin bütün tərkib hissələrinin maksimum fəallaşdırılmasını tələb edir.

Həm 44 günlük Vətən müharibəsində, həm də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19-20 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda 23 saat davam edən antiterror əməliyyatı zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlar, şücaət və igidlik nümunələri onun psixoloji hazırlığının göstəricisidir. Hələ 14 yaşında ikən hakimiyyətə gəlmiş Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmək uğrunda savaşa qalxarkən belə demişdi: "Biz müharibədə süstlük etsək, onda həm Vətənimizi, həm də həyatımızı itirəcəyik". Atabəy Eldəniz, Uzun Həsən, Mustafa Kamal Atatürk müharibələr tarixində ona görə iz buraxa bilmişlər və hərb sənəti onların qazandığı şöhrəti ona görə qoruyub saxlayır ki, onlar gözəgörünməyən, lakin "dəhşətli" bir gücdən - döyüşçü psixikasından yararlanmağı bacarmışlar.

Əsgərlərin döyüşlərə psixoloji hazırlığının yüksək dərəcədə olması özünü hərbi qulluqçuların və ilk növbədə, Azərbaycan əsgərinin döyüş şəraitindəki davranışında göstərmişdir. Əksinə olduğu hallarda, yəni, psixoloji hazırlığı zəif olan hərbçilərin, o cümlədən Azərbaycan torpaqlarını 30 ilə yaxın bir müddətdə qəsb etmiş erməni hərbi qulluqçularının rəftarında açıq-aydın görmək mümkün idi. Onların əksəriyyəti hay-küyə və çaxnaşmaya düşür, əmrləri düzgün yerinə yetirə bilmir və yaxud yerinə yetirmək istəmir, onlarda məqsəd aydınlığı, qətiyyət, döyüş fəallığı, təşəbbüskarlıq və özünənəzarət zəif olur ki, bunları da müharibə zamanı şübhələr, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlı olur. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

**Əsgərin psixoloji hazırlığı** -

✓ döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını,

✓ fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı,

✓ döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri,

✓ psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən, yəni,

✓ hər şeydən öncə insanın əqidəsindən,

✓ onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən,

✓ verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu,

- birinci növbədə, Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını,

- ikinci növbədə isə, mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətləri:

✓ tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;

✓ əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;

✓ normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.) aid edilir.

Döyüşə psixoloji hazırlığın üç dərəcəsi var: 1 - aşağı, 2 - orta və 3 - yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır. Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır. Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq cəhdi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:

✓ özünəinam və özünütəlqin;

✓ öz təxəyyülünü idarəetmə;

✓ nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünütəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxululuqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünütəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır.

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünütəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi, adətən, şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə, "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Diqqətin idarə olunması əsgərin təxəyyülünü idarəetməsi ilə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilər. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərinin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda (işlək vəziyyətdə) saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Könlüm şeir istəyir*

# Azərbaycan şeiri də əsgərdir

***Hər duyğunu şeirləşdirmək olmur. Şeir həssaslıqdı, kövrəklikdi, sevgidi, sevgilərdi, həsrətdi, ... , gözəllikdi və bunların hamısı Vətənə görə yaşanılan duyğulardı. Vətənlə bağlı olan şeirlərə vətənpərvərlik şeirləri deyirik. Bu şeirləri Vətənə ünvanlanmış poetik and kimi oxuyuruq, şəbnəm kimi duyğularımıza çiləyirik...***

***Vətən müharibəsində yazılan şeirlər döyüşçülərin döyüş əzminin, qələbə ruhunun poeziyasıydı, tarixi Zəfərdən sonra yazılan şeirlər qüdrətin, azərbaycançılığın qələbə poeziyasıdı, bir qədər qəhər çaları olsa da, şəhidliyə ehtiramın poeziyasıdı, döyüş poeziyasıdı. Bu şeirləri ruhun poetikası, qalib döyüşçünün timsalında Azərbaycanın tarixə dövlətçilik hesabatı bilirik; Vətən müharibəsində də, tarixi Zəfərdən sonra da Azərbaycan poeziyası Azərbaycan dövlətçiliyinin müzəffər əsgəri olub...***

**"Azərbaycan Ordusu"**

## Gülağa Tənha

### Ali Baş Komandanım

*Tarixi Zəfərin dörd illiyinə*

Canım Azərbaycanı
Qaranlıq gecələrdən
Səhərlərə yetirdin,
Dünyanın gözlədiyi
Zəfərlərə yetirdin,
Ali Baş Komandanım!

Dövlətə sevgin ilə
Məhəbbət işığısan,
Amala, əqidəyə
Sədaqət işığısan,
Ali Baş Komandanım!

"Vətən - gözümün nuru,
Ruhuma candır!" dedin,
"Qara gözlü Qarabağ
Azərbaycandır!" dedin,
Ali Baş Komandanım!

İndi hamı deyir ki,
Zəfər bayrağımızla
Şöhrətliyəm, şanlıyam,
Mən Vətən əsgəriyəm,
Mən azərbaycanlıyam,
Ali Baş Komandanım!

Dağlar uğurlayırdı
Əsgər qətiyyətini,
Zəfər bayrağı etdin,
Ata vəsiyyətini,
Ali Baş Komandanım!

## Bəsti Əlibəyli

### Qarabağın Zəfər savaşçılarına

Sən şimşəkdən doğulan
Sehirli göy qurşağı,
Al Günəşlə yağmurun
Ən uca Zəfər tağı.

Ağ alnında parlayan
İlahidən bir işıq,
Mübarək şəhadətin
Ər adına yaraşıq.

Səngərlər duaçındı
Qızaran al laləsən,
Şuşada - Xarı bülbül,
Murovdağda zirvəsən.

Savaşı sevgi kimi
Türk ruhunda daşıyan,
Yeni tarix başlayan
Mübarizsən, Poladsan.

Mührab. Yüksəl, Cəbrayıl,
Göy üzündə mehrabsan,
"Dumandan xeymə quran"
Nəğməkar Xudayarsan.

Sən ey şanlı qəhrəman,
Mələklər səcdə qılan,
Yağış yuyan, gün sığayan
Gözlərinə ölürəm,
Şonda - Vətən deyib susan
Ürəyindən öpürəm...

## Firuzə Məmmədli

### Şəhid analarına

Yağmurdumu, yağır gəlir,
Ağrı-acı doğur gəlir.
Ha əyirsən, ağır gəlir
Dərdin sevincdən, ana.

Açıldı şeytan, düyünü,
Çox gözləmişdin bu günü.
Bəs dərdin şəhid yükünü
Necə gəzdirirsən, ana?

Gah qazanan, gah itirən,
Səbr, dözümdü bu Vətən.
Çiynində şəhid gətirən
Qələbəmizə tən ana.

## Nəzakət Məmmədova

### Zəfər yoluyla

Gedirəm Şuşaya Zəfər yoluyla,
Sevinc yağışıdır gözümün yaşı.
Üçrəngli bayrağın kölgəsi altda,
Sınıb 30 illik möhnətin daşı.

Həsrət ağrısına məlhəm olubdu,
Sağalıb Vətənin sinə dağları.
Üzü xınalanıb şəhid qanıyla,
Tanrı dualıdı Şuşa dağları.

Vətən torpağının mərd oğulları,
Könlünü alıbdı Xarı bülbülün.
Qələbə sevincin saçan ümidlər,
İndi arzuların üstünə gülür.

Gedirəm bir misra muştuluq alım,
Öpüm xan qızının sözündən öpüm.
Boyun çox ucadır qeyrətin əsgər,
Anayam, bir əyil üzündən öpüm.

## Knyaz Aslan

### Sən azadsan, əziz Şuşa!

Qızıl qansan ürəklərə,
Qızıl odsan, əziz Şuşa!..
Qədim-qayım diləklərə
Qol-qanadsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Yerin gözəl, göyün təmiz...
Eşqin özəl, sevgin dəniz...
Candan əzəl, qandan əziz
Əziz adsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Qalaları xan duyğulu,
Qapıları dan yuxulu...
Qayaları qan qoxulu
Şirin dadsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Xarıbülbül yurd nişanı,
Cıdır düzü cəng meydanı,
Topxanamız hərb dastanı,
Bir həyatsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Sərkərdə - ər, əsgər - ərən,
Qarı düşmən pərən-pərən!..
Millətimə qürur verən
Toy-büsatsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Bayrağımın vüqarı - sən!..
Torpağımın baharı - sən!..
Zəfərimin nübarı - sən!..
Xanabadsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

Qəlbin ulu, qəddin ulu,
Halal yolun haqqın yolu!..
Hünər dolu, Zəfər dolu
Kainatsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..
Sən azadsan, əziz Şuşa!..

## Paşa Babakərli

### Şuşam, xoş gördük səni!

Şuşam, xoş gördük səni,
Bu şadlığın mübarək.
İşğalçı gədalardan
Azadlığın mübarək!

Müqəddəs yurdum-yuvam,
Daşım, xoş gördük səni.
Yuxularda gördük,
Şuşam, xoş gördük səni!

Biz səni geri aldıq
Xəyanətin əlindən.
Qurtardıq bu milləti
Xəcalətin əlindən.

Sənin azadlığınçün
Biz qanlar verdik, Şuşam.
Bu yolda şəhid olduq,
Qurbanlar verdik, Şuşam.

Biz səni silahla yox,
Ruhumuzla qazandıq.
Həsrətimiz, yanğımız,
Duyğumuzla qazandıq.

Qarabağın aranı,
Dağı sevinir bu gün.
Pənah xanın, Nəvvabın
Ruhu sevinir bu gün!

Düşmən başına düşmüş
Daşım, xoş gördük səni.
Şuşam, xoş gördük səni!
Şuşam, xoş gördük səni!

## Emin Piri

### Sən azadsan!

*(döyüş iştirakçısının dilindən)*

Saçımda anamın xınası,
Yolların ayaqlarımçün duası,
gözlərimdə hələ bizim olmayan
uzaqlıq
deyir:
Sən azadsan!
Sən azadsan!

Ayaqlarım cığırlara yalvarır;
Qarabağ,
biz sənin övladınıq,
ilk dəfə gördüyün övladlar.
Uzaq tut ayaqlarımızdan
bətnində gizlətdiyin minaları.

Füzuli, Cəbrayıl, Hadrut cəbhəsi...
Burda ulduzlarla deyil,
hər minamyot mərmisiylə sayırıq
yarım qalan ümidləri,
anaların göz yaşını,
bir döyüşçü sevgilisinin
bətnində ölən arzusunu.

Günlərdir danışmırıq,
bilirəm, narahatsan, ana.
bəlkə gecələri ağlayıb,
şəklimlə ovunursan, ana,
səni Füzulidən eşidirəm, ana,
səni Cəbrayıldan görürəm, ana,
sənə Şuşadan əl yelləyirəm, ana.

Formamda şəhid qardaşlarımın qanı,
gözlərimdə 44 gecənin yuxusuzluğu,
biraz həyəcan, biraz da
sevinc tərinə qarışan geyimim.
Qarabağ torpağıyla, palçığıyla
büsbütün vətənləşən bədənimiz
və
bizi gözləyən Azərbaycan
meydanlarda, ürəklərdə,
gözləriylə hayqırır;
Sən azadsan!
Sən azadsan!

(Xocalı, Sığnaq. Noyabr 2020)

***Qeyd: Emin Piri İkinci Qarabağ müharibəsi iştirakçısıdı.***

## Rəşid Faxralı

### Qələbəyə salam olsun!..

- Hardan başlanır Vətən?
- Əsgər ürəyindən!

İstəyirdim ki, qaynaya,
daşa ruhumun payızı.
Tarix yaza bu torpağa,
daşa ruhumun payızı.

Nə elədin, düz elədin,
Gecəni gündüz elədin,
Sən ki, bizi biz elədin
yaşa, ruhumun payızı!..

- Qardaş, ruhumuzun əsgəri kimdi?
- Döyüşən oğula salam verənlər!

Dağları-daşları dikələn görüb
Döyüşçü qardaşım seçər kilidi,
Sevgi açarıyla açar kilidi...
Tarixə verilən salam kimidi
döyüşdə verilən salam.

Dan üzü Zəfərə sarıdı yönü,
Uğura tən bilir hər gördüyünü...
Düşmənə atılan gülləyə dönür
döyüşdə verilən salam...

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Məsul katib**<br>mayor<br>Ceyhun CƏFƏRLİ | **Telefonlar**<br>Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | **Ünvanımız**<br>Bakı şəhəri, Yasamal rayonu,<br>Şəfaət Mehdiyev küçəsi 144,<br>"Qızıl Şərq" hərbi şəhərciyi | **Qəzetin hesabı**<br>Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | **Növbətçi**<br>Rəşid HÜSEYNOV | Lisenziya № **361**<br>Sifariş № **661**<br>Nüsxə **4650** |